FƏLSƏFƏ TARİXİNƏ MÜASİR YANAŞMA

UOT 101.1
https://doi.org/10.30546/ifs.2026.2.47.1268

ANA DİLİNİN YAŞADILMASI: MİLLİ-MƏNƏVİ YADDAŞIN QORUNMASI VƏ GƏLƏCƏYƏ ÖTÜRÜLMƏSİNİN KONSEPTUAL ƏSASLARI

Sevil Həsənova
Filologiya elmləri doktoru, professor
Bakı Dövlət Universiteti, **Azərbaycan**
sevilhasanova@gmail.com
https://orcid.org/0009-0005-3353-5620

Xülasə. Ana dilini qorumaq, yaşatmaq hər bir Azərbaycan vətəndaşının ən müqəddəs borcu və vəzifəsidir. Klassiklərimiz uzun illər dilimizi qorumaq, yaşatmaq üçün çox çətin mübarizələrdən keçiblər. Hər biri öz ədəbi-bədii, elmi-nəzəri yaradıcılığında bu müqəddəs mövzuya geniş yer verib. Biz və bizdən sonrakı gənc nəsillər də klassiklərimizin bizə əmanət qoyub getdikləri milli-mənəvi dəyərlərimizə sahib çıxmalı və onu əbədi yaşatmalıyıq.

Dilimizin qorunmasında, yaşanmasında mətbuat hər zaman mühüm rol oynayır və elmin-texnikanın inkişafı nəticəsində bugünkü medianın üzərinə çox böyük məsuliyyət düşür. Xüsusən də televiziyanın kütləvi kommunikasiya sahəsinə daxil olması Azərbaycan ədəbi dilinin tətbiqi sahəsinin daha da genişlənməsinə, inkişafına, zənginləşməsinə yol açdı. Ədəbi dilimiz, əsasən də onun şifahi qolu TV sahəsində uzun bir inkişaf yolu keçərək cilalandı, bu da onun işləkliyinə səbəb oldu. Geniş auditoriyaya malik olan televiziya şifahi dilin ən çox işləndiyi sahədir. Ona görə də TV dili bütövlükdə nizamlanmış normativ bir dildir və o, ədəbi dilin normalarına həddən artıq diqqətli olmağı, qayğı ilə yanaşmağı tələb edir.

Açar sözlər: Ana dili, müqəddəs borc, klassiklərimiz, ədəbi-bədii irs, TV dili

PROTECTING AND PRESERVING OUR MOTHER TONGUE IS THE SACRED DUTY OF EVERY ONE OF US

Sevil Hasanova

Abstract. Protecting and preserving the mother tongue is the most sacred duty and responsibility of every citizen of Azerbaijan. Our classics also faced great difficulties for many years in their efforts to preserve and sustain our language. Each of them devoted considerable attention to this sacred subject in their literary-artistic and scientific-theoretical works. We, together with future generations, must protect the national and spiritual values entrusted to us by our classics and preserve them for the future.

The press has always played an important role in preserving our language. With the development of science and technology, today’s media bear significant responsibility in this regard. In particular, the inclusion of television in the sphere of mass communication paved the way for the further expansion, development, and enrichment of the field of application of the Azerbaijani literary language. Our literary language, especially its oral branch, underwent a long process of development and refinement within the field of television, which contributed to its functionality and active use. Television, with its broad audience, is the sphere in which oral language is used most extensively. Therefore, the language of television is, as a whole, a regulated normative language, and it requires extremely careful attention and conscientious treatment toward the norms of the literary language.

Keywords: mother tongue, sacred duty, our classics, literary and artistic heritage, television language

СОХРАНЕНИЕ РОДНОГО ЯЗЫКА: КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ЗАЩИТЫ НАЦИОНАЛЬНО-ДУХОВНОЙ ПАМЯТИ И ПЕРЕДАЧИ ЕЕ БУДУЩЕМУ

Севиль Гасанова

Резюме. Защита и сохранение родного языка – священный долг и обязанность каждого гражданина Азербайджана. Наши классики на протяжении многих лет преодолевали тяжелые испытания, чтобы защитить и сохранить родной язык. Каждый из них в своем литературно-художественном и научно-теоретическом творчестве уделял большое внимание этой священной теме. Мы, а также последующие молодые поколения, должны беречь национально-духовные ценности, завещанные нам классиками, и вечно их сохранять.

В деле защиты и сохранения родного языка пресса всегда играла важную роль. В результате развития науки и техники на современные средства массовой информации ложится огромная ответственность. В частности, вхождение телевидения в сферу массовых коммуникаций открыло путь к дальнейшему расширению, развитию и обогащению сферы применения азербайджанского литературного языка. Наш литературный язык, преимущественно его устная ветвь, прошел долгий путь развития в сфере телевидения и отшлифовался, что обусловило его функциональность. Телевидение, обладающее широкой аудиторией, представляет собой сферу наиболее активного использования устной речи. Поэтому язык телевидения в целом является упорядоченным нормативным языком, и он требует предельного внимания и заботливого подхода к нормам литературного языка.

Ключевые слова: Родной язык, священный долг, классики, литературно-художественное наследие, язык телевидения.

Giriş

Ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Millətin dili onun formalaşmasında əsas şərtlərdən biridir. Bu gün onun qorunmasında və yaşanmasında KİV-in, xüsusən də televiziyanın xüsusi yeri var. Bugünkü dünyanın inkişaf mənzərəsini müəyyənləşdirən üç əsas proses qloballaşma, informasiyalı cəmiyyətə keçid və açıq cəmiyyət ideyasıdır. Bu ideyaların gerçəkləşməsi, təbliği məhz KİV sistemi ilə, xüsusən də dünyanı vahid informasiya məkanına çevirən TV ilə bir başa bağlıdır. TV KİV-in elə bir qoludur ki, orada cəmiyyətin bütün sahələri, o cümlədən dildə, ünsiyyətdə, mədəniyyətdə gedən proseslər özünü əks etdirir. Estetik və mənəvi sərvətlər sistemində özünəməxsus yeri olan, spesifik ifadə vasitələrinə malik olan TV-nin dilimizin inkişafında, yaşanmasında mühüm rolu var. Ədəbi dilimiz, xüsusən onun şifahi qolu TV-nin inkişafı sayəsində daha da cilalanmış, işləkliyini artırmışdır. Elə buna görə bu gün ekran-ədəbi dilinin tədqiqata cəlb edilməsi, öyrənilməsi, ədəbi dilin ekranda tətbiq edilməsi və s. məsələlər diqqət mərkəzindədir.

Bildiyimiz kimi, TV dilinin əsasında şifahi nitq (söz) durur. Bu sözü, fikri tamaşaçıya TV aparıcıları, diktorları, telejurnalistlər çatdırır. Ona görə də onlar ədəbi dil normalarını yaxşı bilməklə, mənimsəməklə yanaşı, onun qayda-qanunlarına əməl etməlidirlər. Bununla yanaşı, onlar milli mənsubiyyətimizə nümunə olmalıdırlar. Etiraf edək ki, bu gün müasir Azərbaycan televiziyasında bu prinsiplərə, qaydalara əməl etməyən aparıcılarımız, diktorlarımız və telejurnalistlərimiz də var. Onlar televerilişlərdə işlənən hər sözə, ifadəyə, cümləyə diqqətlə yanaşmırlar, ədəbi dil normalarına, nitq mədəniyyətinə əməl etmirlər və daha doğrusu, bəziləri bunu bacarmırlar. Unudurlar ki, sözə həssaslıqla yanaşmalı, sözlə professional rəftar etməlidirlər.

Odur ki, mövzu ilə bağlı dilçilərimiz, telenəzəriyyəçilərimiz, ictimaiyyət nümayəndələrimiz mütamadi olaraq öz fikir və iradlarını, dəyərli məsləhətlərini bildirirlər. Belə əsərlərdən bir neçəsinin adını qeyd etmək yerinə düşərdi. A.Axundovun “Televiziya və radionun xalqın nitq mədəniyyətinin inkişafında rolu. Dil mədəniyyəti”, N.Əhmədlinin “Jurnalistin vizual nitq mədəniyyəti”, Q.Məhərrəmlinin “Televiziya dili” və “Audiovizual nitq”, N.Xuduyevin “Televiziya, radio və ədəbi dil”, İ.Məmmədovun “Ekran, efir və dilimiz”, M.Yusifovun “Nitq mədəniyyətinin əsasları” və onlarla müəlliflərin əsərlərinin adlarını çəkə bilərik.

Məsələnin ciddiliyi ölkə rəhbərliyini də narahat etdiyi üçün bu sahədə çoxsaylı sərəncamlar, qanunlar, fərmanlar verilmiş və onların yerinə yetirilməsi səlahiyyətli şəxslərin qarşısında birmənalı olaraq qoyulmuşdu. Bu məsuliyyət həm də çağdaş mediamızın da üzərinə düşür, xüsusən də televiziyanın. Verilən sərəncamlardan, fərmanlardan sonra TV verilişlərinin dilinə xüsusi diqqət

yetirilmiş, nizamlanmış, onun tədqiqinin aktuallığı bir daha nəzərə alınmışdır. TV verilişlərinin dili, daxili strukturu möhkəmlənmiş normativ dildir. Ona görə də ekran dilinin normalarına, prinsiplərinə, alınma dil vahidlərinə qarşı çox diqqətli olmağı tələb edir. TV-də yazılan sözlə, deyilən sözün müqayisəsi, xüsusiyyətləri “təsvir-səs-nitq” vəhdətinə diqqət yetirilməlidir.

Prof. Elşad Quliyev “Televiziya iki əsrin ayrıcında” adlı əsərində qeyd edirdi ki, “spesifik ifadə vasitələrinə malik olan TV milyonlarla tamaşaçıya təsir edə bilən qüdrətli informasiya vasitəsinə çevrilmişdir” (4, s.32-33). Elə ona görə də ana dili məsələsi hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Müstəqilliyimiz yenidən bərpa edildikdən sonra (1991) Azərbaycan dili zənginləşmiş, inkişaf yolu keçərək böyük uğurlar qazanmışdır. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dilinin imkanları mətbuatın, radionun, televiziyanın bütün tələbatını təmin edir. Amma təəssüflər ki, yuxarıda qeyd etdiyimiz kimi, bəzi KİV işçiləri, xüsusən də TV əməkdaşlarının bəziləri dilimizin imkanlarından lazımi səviyyədə istifadə edə bilmirlər. Çünki bu gün TV-də yetərincə qeyri-peşəkarlar çalışır. Onların əksəriyyətinin nə jurnalist, nə də filoloji təhsili olmadığı üçün Azərbaycan ədəbi dilinin qayda-qanunlarını bilmirlər. Nəticədə, ədəbi dilimizə dolaşıqlıq gətirərək, onun normalarını pozaraq, süni, qondarma bir “dil” yaradırlar. Daha doğrusu, bilmirlər ki, ekran nitqinin düzgünlüyü, tamaşaçılar üçün anlaşıqlığı birbaşa ədəbi normaya əməl olunub-olunmaması ilə müəyyən edilir.

TV dilinin zənginləşməsi və onun qayda-qanunlarına əməl edilməsi üçün görkəmli nəzəriyyəçi alimlərimizdən Y.Əlizadə, N.Əhmədli, Q.Məhərrəmli, C.Məmmədli çoxsaylı məqalə və əsərlərində, monoqrafiyalarında faydalı, maraqlı elmi-nəzəri fikir və mülahizələr irəli sürmüşlər. “Dildə gedən proseslərlə cəmiyyətin inkişafı arasında sıx əlaqə” (7, s.8) olduğunu vurğulayan telenəzəriyyəçi alim Q.Məhərrəmli çox haqlı olaraq “Televiziya dili” adlı monoqrafiyasında Azərbaycan dilçiliyinin aktual problemlərindən bir neçəsi haqqında geniş və maraqlı fikirlər söyləyib. Görkəmli alim əsərində əsasən televiziyada çox geniş şəkildə işlənən şifahi nitqin funksional-struktur xüsusiyyətlərinin öyrənilməsindən, ədəbi dilin ekranda tətbiq edilməsindən, xüsusən də TV-nin əsasını təşkil edən “nitq-təsvir-səs” triadasının ekstralinqvistik, diktor-aparıcı mətninin linqvistik mahiyyətinin aşkarlanmasından bəhs edir. Müəllif bu məsələləri birbaşa ekranda nitq mədəniyyəti, konkret dil faktları əsasında araşdırıb. Televiziyanı “dilimizin güzgüsü” adlandıran Qulu müəllim bu güzgüdəki uğurlarla yanaşı, nöqsanları da geniş şəkildə əsərində əks etdirə bilib.

Bu gün çağdaş mediamızda “kommunikativ təbiəti, təbliğatı və estetik funksiya daşıması ilə” (7, s.11) fərqlənən teleməkanda, həqiqətən, sözün böyük rol oynamasının şahidi oluruq. Verilişlərin, söhbətlərin, müsahibələrin, dialoqların, çıxışların və s. əsasən şifahi formada qurulması bir daha fikrimizi təsdiq edir. Diqqət yetirərkən şahidi oluruq ki, “istənilən verilişin əsas mövzusu ekrandakı insanın danışığı ilə bağlıdır”(4, s.34). Unutmayaq ki, teleməkanda danışıq yalnız məlumat vermək, münasibət bildirmək deyil, “həm də ekran nitqinin əsas təzahür formasıdır” (4, s.34). Deməli, bu zaman ekranda danışanın həm səlis, aydın danışıq tərzi, həm də tamaşacıların diqqətini cəlb etmə bacarığı, sözdən istifadə məharəti, qarşısındakını inandırma qabiliyyəti əsas faktorlardandır. Bu zaman TV-də şifahi nitq mühüm rol oynayır. Çünki “TV-də gözəl, sərbəst, mənalı danışıq” (7, s.38) əsas şərtlərdəndir. Ekranda hər hansı bir hadisənin, faktın, gerçəkliyin özünəməxsus şəkildə əks etdirilməsində şifahi nitq xüsusi rol oynayır.

Yuxarıda sadaladığımız bu keyfiyyətlərə, tələblərə doğru-düzgün əməl edilərsə, tamaşaçı ilə çox gözəl ünsiyyət qurular. TV kütləvi ünsiyyət vasitəsi “olduğundan ekranda səslənən şifahi nitq” (7, s.40) saysız-hesabsız auditoriyaya yayılır. Bu auditoriya müxtəlif sosial tərkiblidir. Odur ki, onların şüuruna, davranışına, düşüncə tərzinə təsir etməklə yanaşı, “danışıq tərzinə daha effektli təsir etmək mümkündür” (7, s.50). Belə olduqda telejurnalistdən bir daha tələb olunur ki, televerilişlərdə işlənilən hər sözə, ifadəyə, fikrə çox diqqətlə yanaşılsın və ədəbi dil normalarına riyaət edilsin. Dilçi alimlərimiz də bunu tələb edir. “Hər bir xalqın maddi və mənəvi varlığı, onun sosial-mədəni səviyyəsi, milli dünyagörüşü ilk növbədə öz ifadəsini sözdə tapır” (5, s.97). Burada telejurnalistdən sözə həssaslıqla, xüsusən də məsuliyyətlə yanaşması tələb edilir. “Televiziyada söz, adətən, təsvirlə sinxron şəkildə müşaiyət olunur” (7, s.63). Deməli, fikir tamamlanmalıdır, söz təsvirin məzmun və mahiyyətini açıb göstərməlidir. Çox zəngin olan ana dilimiz jurnalistə söz seçmək, fikrini ətraflı şərh etmək imkanları açır.

Müxtəlif telekanallarda yayımlanan, Azərbaycan ədəbi dil normalarına və nitq mədəniyyətinin prinsiplərinə əməl edən verilişlər də var. Məsələn, Ana televiziyamız olan AzTV və İctimai televiziyada bu məsələlərə çox tələbkarlıqla və həssaslıqla yanaşırlar. Özəl kanallarımızda isə ədəbi dil normalarımızı

pozan, onun qayda-qanunlarına əməl etməyənlər də yetərincədir. Bu nöqsanları aradan qaldırmaq üçün mütəmadi olaraq reydlər, müzakirələr aparılmalı, nəticəsi obyektiv olaraq KİV-də geniş şəkildə açıqlanmalı, ictimai qınaq gücləndirilməlidir.

Hər gün, hər an yeniləşən dünya televiziya məkanında olduğu kimi, Azərbaycan kanalları da müasir dövrün tələblərini nəzərə alaraq fəaliyyətində ciddi dəyişikliklər etməli, yeni layihələrə imza atmalı, verilişlərini yüksək peşəkarlıqla müasir dövrün tələb və təklifinə uyğun qurmağı bacarmalıdır. Yenidən müstəqilliyini qazanan Azərbaycan üçün bu, çox önəmlidir.

Dünya televiziyasından fərqli olaraq Azərbaycan televiziyasında son 20 ildən çoxdur ki, realiti-şou verilişləri yayımlanır. Realiti-şouların hamısı uğurlu olmasa da, dünyanın ən məşhur və gəlirli televiziya proqram növlərindən biridir. Təməlində rəqabət olduğu üçün realiti-şoular çox sevilir, tamaşaçı onu izləyir.

Azərbaycan televiziya məkanında xarici telekanallardan adaptasiya olunan bir çox realiti-şoular var və onların uğurlu olmasında şou aparıcılarının da payı var. Onlar, adətən, jurnalist olmurlar. Onlarda artistizm qabiliyyəti daha çox olmalıdır. Təəssüf ki, bu verilişlərin bəzilərində aparıcılar reytinq xatirinə qalmaqal, gərginlik yaradırlar. Onlar bəzən elə düşünürlər ki, televiziya əyləndirməklə işini bitmiş hesab etməlidir. Çox təəssüf ki, belə aparıcılar unudurlar ki, televiziya həm də tamaşaçısını düşündürməli, düzgün istiqamətləndirməlidir. Bunun üçün onlar yüksək efir mədəniyyətinə malik olmalıdırlar.

Bu verilişlər ya canlı, ya da əvvəlcədən çəkilmiş olur. Canlı yayım hadisənin anında tamaşaçıya çatdırılmasıdır və burada aparıcının üzərinə böyük məsuliyyət düşməklə yanaşı, ondan peşəkarlıq, professionallıq tələb olunur. “Canlı efirdə olarkən aparıcı ilə auditoriya arasında müəyyən bərabərlik təmin olunmalıdır. Verilişin uğuru təkcə həcmi və operativliyi ilə deyil, aparıcının səmimi söhbət aparmaq qabiliyyəti və oponenti dinləmək istəyi ilə müəyyənləşir” (12, s.338).

Bəzən bu realiti-şouların teleməkanımızda yer almasını qəbul etməyən tamaşaçılarımız da var. Amma cəmiyyətə müəyyən bilgilərin ötürülməsi baxımından realiti-şounun telekanallarda olması lazımdır. Doğrudur, bu layihələr, əsasən, mübahisələrin, intriqaların üzərində qurulur, amma layihə rəhbəri verilişin geniş auditoriya üçün nəzərdə tutulduğunu yaddan çıxarmamalı və belə səhnələr montaj edilməlidir. Əslində, etikadan kənara çıxmaq doğru deyil. Təəssüflər ki, bəzi televiziyalar reytinq xatirinə, verilişin baxımlılığını artırmaq üçün süni konfliktlər də yaradırlar. Onlar unudurlar ki, bunun bir həddi var və o həddi keçmək olmaz, xüsusən də etik normaları. Etiraf edək ki, bu şoularda yaşananlar, təəssüf ki, bəzən həyatda yaşanan həqiqətlərdir.

Görkəmli tədqiqatçı M.Zemlyanova tok-şounu “müasir radio və televiziyanın çox populyar janrı” (15, s.236) adlandırır. Zamanın tələbləri sayəsində bu gün bütün dünyada olduğu kimi, bizim televiziya və radio proqramlarında əyləncə və şou verilişlərimizin sayı çoxluq təşkil edir. Televiziya və radioda dil normalarının pozulmasına əsas səbəb də həmin əyləncə və şou verilişlərinin “həmin sahənin biliksiz, savadsız, məişət nitqi ilə danışan təmsilçilərinin ekranlarda, efirlərdə geniş yer tutmasıdır” (8, s.20-21). Nəticədə efir və ekranlarımıza “cəlb” edilən qeyri-peşəkarlar ana dilimizi bərbad hala salırlar. Onlar dərk etmirlər ki, millətin də, dövlətin də təməlində dil dayanır.

İstər xəbər, istərsə də şou, fərqi yoxdur, hər birində “aparıcının təqdim etdiyi proqram onun şəxsi keyfiyyətləri ilə tamamlanır və hər bir aparıcının özünəməxsus ekran imici formalaşır” (12, s.339).

Bu gün telekanallarımızda yayımlanan xəbər verilişlərinə nisbətən şou verilişlərinin əksəriyyətinin aparıcıları qoyulan tələblərə nəinki yüksək səviyyədə, heç orta səviyyədə belə cavab vermirlər. Həmin “aparıcıların mütaliəsi yoxdur. İstifadə etdikləri leksik baza, üslub tərzi, ümumi dil bilikləri zəifdir. Bütün bunlar kamera qarşısına çıxan şəxslərin öz keyfiyyəti ilə bağlıdır. Aparıcılar tamaşaçı, həmkarlar və peşəkarlar qarşısında məsuliyyət hiss etmədikdə peşələrinə dırnaqarası yanaşırlar. Efirdə dialekt və şivələrdən istifadə edilməsi məişət davranışının nəticəsi olaraq meydana gəlir. Ədəbi dili təmsil etməli olan aparıcı nəticə etibarilə bu qaydaları pozur” (11, s.30).

Həmin nöqsanlar özünü əsasən şou xarakterli verilişlərdə göstərir. Reklam və tanınmaq xatirinə televiziyaları zəbt edən bayağı təfəkkürlü insanlar, məsələlərə çox vaxt uyğun olmayan ekspertləri verilişə dəvət edir, sonradan onların sözünü kəsən, bəzi teleaparıcılar ədəbi dil normalarını ciddi şəkildə pozurlar. Belə verilişlərdə heç bir ədəbi dil normalarından söhbət gedə bilməz. Təkrarlıq, cümlənin düz qurulmaması, xarici sözlərə, ifadələrə müraciət, söz sırasının pozulması, məntiqi bağlılığın zəif olması, məhəlli xarakterli sözlərdən istifadə və s. hallara yol verilməməlidir. Bu halda ədəbi dilin bütün normaları pozulur. Təəssüfləndirici hal odur ki, bu nöqsanların həlli yolları göstərilsə də, bəzi aparıcılar bunlara əməl etmirlər. Belə olduqda bəzi mütəxəssislər intizam tədbirlərini, cərimə metodlarını təklif

edirlər. “Demokratiya adı altında televiziya kanallarının şəxsi biznesə çevrilməsi, mənfəətlərini reklam və şou xarakterli verilişlərdən götürməsi onlar üzərində nəzarətin müəyyən mənada zəifləməsinə gətirib çıxarır” (14, s.92).

Burada əsas məsuliyyət kanal rəhbərlərinin üzərinə düşür. Çünki onlar bu mühüm vəzifənin həyata keçirilməsində laqeydlik göstərirlər. Ölkəmizdə ana dilimizin qorunması, yaşaması, zənginləşməsi üçün dövlətimiz qayğı göstərir, geniş imkanlar yaradır, qanunlar qəbul edir. Amma təəssüflər ki, media aləmində hələ də bu qüsurlar, nöqsanlar var. Odur ki, dilçi alimlərimizin, telenəzəriyyəçilərimizin, “həyəcan təbili” səbəbsiz deyil. Onlar uzun illər Azərbaycan dilinin toxunulmazlığına, qorunmasına, yaşanmasına, inkişaf etməsinə, zənginləşməsinə çalışan mütəxəssis kimi bu sahədəki nöqsanların aradan qaldırılması üçün tədbirlər görülməsini təklif edirlər.

Bu gün ölkəmizdə xeyli sayda özəl televiziya və radiolar fəaliyyətdədir. Əyləncəli verilişlərin əksəriyyəti də onların payına düşür və elə nöqsanların da çoxu onlarla bağlıdır. Məsələn, DJ-lər çox qəribə bir danışıq tərzi ilə efirə, ekrana hökmranlıq edirlər. Dilə xələl gətirən lüzumsuz sözlər, anlaşıqlı olmayan ifadələr işlədilir və nəticədə rəvan, aydın nitq itib-batır. Bu əsasən ondan irəli gəlir ki, teleradio kanallarında çalışan aparıcıların əksəriyyəti ədəbi dil qaydalarını bilmir, öz ana dilini yaxşı bilmədiyi üçün veriliş zamanı sözü, ifadəni tapıb yerində işlətmir, əvəzində əcnəbi və ya jarqon, məhəlli sözlərdən istifadə edir. Burada bir faktı qeyd edək ki, bu əyləncəli verilişlərin “üstünlük təşkil etdiyi özəl kanalların dinləyicilərinin əksəriyyəti gənclərdir, yeniyetmələrdir və onların gördükləri, eşitdikləri onlara daha tez təsir edir” (6, s.316).

Doğrudur, bu gün bazar iqtisadiyyatı hər sahəyə öz təsirini göstərir, o cümlədən radio-televiziyaya da. Amma bu o demək deyil ki, hər şey maddiyyata qurban verilməlidir. Milli maraqlar unudulmamalıdır. Axı “milli televiziyamız maddi və mənəvi dəyərlərimizin mütləq sahibidir...” (1, s.169). Bu da sirr deyil ki, “özəl kanallar bazar münasibətləri strukturu kimi bazar qanunları ilə fəaliyyət göstərdiyi üçün” (9, s.568) maarifçi, tərbiyəvi proqramlar arxa plana keçir, əsas yeri reklam və realiti-şou xarakterli verilişlər tutur. Dünyada olduğu kimi bizdə də məşhur aktyor və müğənnilər realiti-şou aparıcıları rolunda çıxış edirlər. Burada aparıcıdan “hazırcavablıq, səmimilik, yumor hissi, maraqla dinləmək mədəniyyəti, plastik hərəkətlər” (13, s.157) tələb olunur. Bu zaman aparıcıdan “teleaparıcılığın bir sıra elementlərini özündə birləşdirən “şoumen obrazı” (9, s.582) tələb edilir. Məsuliyyət yenə də aparıcının üzərinə daha çox düşür. Ümumiyyətlə, “hər bir aparıcının təqdim etdiyi proqram onun şəxsi keyfiyyətləri ilə tamamlanır və hər bir aparıcının özünəməxsus ekran imicini formalaşdırır” (2, s.105). Deməli, hər bir aparıcı efirdə-ekranda özünün “simasını” yaradır.

Prof. F.Xalıqov isə bu nöqsanların aradan qaldırılması yollarını yalnız monitorinqlərin keçirilməsində, sorğuların aparılmasında görür və dönə-dönə qeyd edir ki, bu nəticələr cəmiyyətdən gizlədilməməlidir, mətbuat vasitəsilə xalqa çatdırılmalı, ictimai qınaq olmalı, radio-televiziya işçiləri arasında geniş təbliğat işi aparılmalıdır. “Bu problemlərin həllinə yönəlmiş bir sıra tədbirlər görməyin vaxtı çatmışdır. İlk növbədə radio və televiziya işçiləri arasında geniş təbliğat işinə ehtiyac var. Orfoqrafik və orfoepik normalara əməl etməyin vacibliyinin dilin qorunmasında mühüm vasitə olması hər kəsin şüurunda, qəlbində özünə yer etməlidir” (3, s.28).

Amma çox təəssüf ki, bəzi müəsissələr, dil qurumları, xüsusən də bəzi özəl radio və televiziya kanallarının rəhbərləri bu sahədə olan fərmanlardan, sərəncamlardan irəli gələn problemlərin həllinə biganəlik nümayiş etdirirlər. Onların müzakirəsi çox az hallarda ictimai xarakter kəsb edir. Çox yaxşı olar ki, bu sərəncam və göstərişlərin yerinə yetirilməsi dövlət səviyyəsində tələb kimi qarşıya qoyulsun, yerinə yetirilsin, həllini tapmayan məsələlər yenidən gündəmə gətirilsin və problemin həllinə laqeyd olan müəssisə, qurum rəhbərləri ictimai qınağa tuş gəlsinlər.

Nəticə

Əslində, bu problemin həll edilməsində təkcə dilşünasların, telenəzəriyyəçilərin deyil, hər bir ziyalının, vətəndaşın üzərinə böyük məsuliyyət düşür. Çünki bu, bütövlükdə cəmiyyətin ən müqəddəs vəzifəsidir. Ona görə də ana dilimizlə bağlı olan bütün dövlət sənədlərində “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması, dilin inkişafı və tədrisi məsələlərinin təkmilləşdirilməsi, dilçi alimlərin müasir informasiya, kommunikasiya texnologiyalarının yaradılmasında iştirakının təmin edilməsi, dilin inkişafı və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi, mətbuat orqanlarında, televiziya və radio kanallarında,

internet resurslarında, sosial şəbəkələrdə ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün mexanizmlərin müəyyənləşdirilməsi kimi vəzifələr qarşıya qoyulmuşdur” (10, s.39).

Amma yuxarıda qeyd etdiyimiz kimi, təəssüf ki, bütün kütləvi informasiya vasitələri qarşıya qoyulan bu tələblərə əməl etmir. Bu ya ana dilinin incəliklərini, ədəbi dil normalarını bilməməkdən irəli gəlir, ya da bəzi KİV işçilərinin məsuliyyətsizliyindən. Bəziləri hətta canlı efirdə əcnəbi sözləri, məhəlli ifadələri işlətməkdən belə çəkinmirlər. Doğrudur, bu hallar əsasən şou xarakterli verilişlərdə baş verir. Amma aparıcı, telejurnalist fikirləşməlidir ki, o, son dərəcə diqqətli və məsuliyyətli olmalıdır. Fərq etməz, istər ciddi veriliş olsun, istər şou xarakterli.

Doğrudur, bu gün dilimizdə çox saylı ərəb, fars, rus sözləri var və onlar artıq dilimizin qanunlarına tabe olmuş, vətəndaşlıq hüququ qazanmışlar. Dil canlı orqanizm kimidir, o, daima inkişafdadır. Sovet dönəmində daha çox rus sözlərinə meyil edilirdisə, bu gün Türkiyə türkcəsinə meyil artıb. Məsələn, bilgi (məlumat), yaşam (həyat), öndər (rəhbər), anlam (məna), durum (vəziyyət), öncə (əvvəlcə) və s.

Bu gün aparıcılarımız, ekranda-efirdə bəzən asan sözlərimizin əvəzinə, çətin, dilə yatmayan sözlər, ifadələr işlədirlər. Məsələn, az qala hər gün ekrandan, efirdən eşidilir ki, “Xəstəxanada yanğın baş vermişdi. Xəstələri dərhal binadan evakuasiya etdilər”. Burada “köçürdülər” sözünün yerinə “evakuasiya” sözü işlədilir. Diqqət yetirək: “köçürmə” sözü necə də gözəl səslənir. Bəs onda niyə aparıcılarımız hər gün çətin tələffüz olunan “evakuasiya” sözünü işlədirlər? Bununla onlar dilimizə qarşı kobudluq, hörmətsizlik etmiş olmurlarmı?

Və yaxud, başqa bir sözə diqqət yetirək. Son vaxtlar ekranlarımızda, efirimizdə “başlamaq” sözü əvəzinə, “start” sözü işlədilir. Məsələn, “Bu gün İmişlidə yaz-əkin kampaniyasına start verildi”, “İdmançılarımız start götürdü”. Hər gün xəbərləri dinləyərkən bu sözü ən azı bir neçə dəfə eşidirik. Maraqlıdır, aparıcılarımız niyə asan, aydın tələffüz olunan “başlanıb” sözünü işlətmirlər?

Bütün bunlar ondan irəli gəlir ki, hər gün bizimlə efir-ekran vasitəsilə daimi ünsiyyətdə olan aparıcılarımızın, diktorlarımızın, telejurnalistlərimizin çoxu öz ana dilimizin qayda-qanunlarını, incəliklərini bilmirlər. Unudurlar ki, dilimizin lüğət tərkibinə həssas yanaşmalı, veriliş daxilində sözün işlənmə məqamını doğru, düzgün müəyyənləşdirməlidirlər. Sözlər digər dil vahidləri ilə xüsusi üstünlüyə malikdir və onlar sözə xas olan obrazlılıq, sinonimlik, emossionalıq, incəlik gətirir. Ən əsası onlar sözlə işləyərkən unutmamalıdırlar ki, ədəbi danışıq üslubu ümumxalq danışıq dili bazasında təşəkkül tapdığı kimi, ümumişlək sözlər də orada üstünlük təşkil etməlidir. Terminlərlə yüklənmiş, mənası anlaşılmaz, deyilişi çətin olan sözlərdən mümkün qədər qaçmaq lazımdır. Bunun əvəzinə dilimizdə özünə geniş yer tapmış ideomatik ifadələrdən, frazeoloji birləşmələrdən, çoxmənalı sözlərdən daha çox istifadə edilməlidir”.

Əgər yuxarıda qeyd olunan bütün şərtlərə aparıcılarımız, diktorlarımız əməl edərsə, onlarla dinləyici, tamaşaçı arasında yaxşı ünsiyyət yarana bilər, anlaşma möhkəm olar. Bu isə verilişlərimizin dinlənilməsinə, baxılmasına, sevilməsinə şərait yaratmaqla yanaşı, proqramlarımızın sənətkarlıq cəhətdən yüksəlməsinə, cilalanmasına təkan verər.

Sonda qeyd etmək istərdik ki, Azərbaycan televiziyası fəaliyyətə başladığı gündən bu günə kimi bir-birindən maraqlı, rəngarəng proqramlar ərsəyə gətirib. Onlardan bəzilərinin “həyatı” uğurlu olmasa da, bu gün uğurla fəaliyyətini davam etdirən layihələr də var.

İstifadə olunmuş ədəbiyyat

1. Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, 184 s.

2. Həsənova N. Realiti-şoularda aparıcı problemi. Jurnalistika (ictimai-siyasi humanitar elmlər seriyası). Bakı: Elm və təhsil, 2018, №8, 101-105 s.

3. Xalıqov F. Dilimiz - milli varlığımızdır. “Füyuzat” jurnalı., 2014, №5, 24-29 s.

4. Quliyev E. Televiziya iki əsrin ayrıcında. Bakı: İşıq, 1993, 200 s.

5. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1967

6. Quliyeva Ş. Cəmiyyətin aynası olan “ekran” və “efir”in ictimai düşüncəyə təsiri və milli radio ana dilimizin keşiyində. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: BDU-nəşr. 2(86), 2013, 315-317 s.

7. Məhərrəmli Q. Televiziya dili. Spesifika: funksiya və struktur. Bakı: Elm, 2002, 304 s.

8. Məhərrəmli Q. Azərbaycan dili: düşüncələr, təkliflər. “Füyuzat” jurnalı, 2014, №5, 18-22 s.

9. Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Dərslik. II nəşr. Bakı:Təhsil, 2013,656 s.

10. Məşədiyev Q. Azərbaycan dili dövlət dilimizdir. “Füyuzat” jurnalı., 2014, №5, 36-40 s.

11. Məmmədli İ. KİV-də ədəbi dil normalarına həssaslıqla yanaşılmalıdır. “Füyuzat” jurnalı, №5, 30-34 s.

12. Niftəliyev B. Canlı yayımda ünsiyyət formaları. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: BDU-nəşr, 2 (98), 2016, 338-340 s.

13. Голядкин Н. ТВ информация в США. Москва, 1996, 157 с.

14. Кэрролл В. Новости на ТВ. Москва, 2000, 200 с.

15. Землянова Л. Зарубежная коммуникативистика в преддверии информационного общества. Москва, МГУ, 1999, 236 с.

16. https://azvision.az/news/127851/news.html

Rəyçi: f.f.d. Ağahüseyn Şükürov